# AZƏRBAYCAN RESPUBLİKASI
# AUDİTORLAR PALATASI SƏDRİNİN
# SƏRƏNCAMI

**Bakı şəhəri** **№ 1/15** **06 aprel 2015-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasında çağrı mərkəzinin yaradılması barədə**

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili qaydaları"nın təsdiq edilməsi haqqında 2015-ci il 25 fevral tarixli 50 nömrəli qərarının icrasını təmin etmək məqsədilə

## QƏRARA ALIRAM:

**1.** Azərbaycan Respublikasının Auditorlar Palatasında çağrı mərkəzinin yaradılması ilə əlaqədar təşkilati tədbirlərin görülməsi və "Azərbaycan Respublikasının Auditorlar Palatasında çağrı mərkəzinin fəaliyyətinin təşkili Qaydaları"nın hazırlanması üçün aşağıdakı tərkibdə işçi qrupu yaradılsın:

### İşçi qrupunun rəhbəri

| | |
|---|---|
| Qəşəm Bayramov | - Auditorlar Palatası Aparatının rəhbəri. |

### İşçi qrupunun üzvləri

| | |
|---|---|
| Fəqan Qarayev | - Auditorlar Palatası Sədrinin müşaviri; |
| Maarif Abbasov | - Auditorlar Palatasının Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin rəisi; |
| Səbuhi Gülməmmədov | - Auditorlar Palatasının Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinin rəisi; |
| Vəli Rəhimov | - Auditorlar Palatasının Maliyyə və təsərrüfat idarəsinin rəisi; |
| Rüstəm Ələkbərov | - Auditorlar Palatası Aparatının informasiya texnologiyaları üzrə mütəxəssisi |
| Elçin Əliyev | - Auditorlar Palatasının Şurası yanında İnformasiya və mətbuat üzrə Komitənin sədri; |

Avtandil Əliyev - Auditorlar Palatasının Şurası yanında Dövlət orqanları və ictimaiyyətlə əlaqələr üzrə Komitənin sədri.

**2.** İşçi qrupuna tapşırılsın ki, "Azərbaycan Respublikasının Auditorlar Palatasında çağrı mərkəzinin fəaliyyətinin təşkili Qaydaları"nın hazırlanmasını bir ay müddətində başa çatdırsınlar və Palata Şurasının növbəti iclasında müzakirə olunmaq üçün təqdim etsinlər

**3.** İşçi qrupuna (Q.Bayramov) tapşırılsın ki, Auditorlar Palatasında çağrı mərkəzinin yaradılması ilə əlaqədar təşkilati tədbirlərin həyata keçirilməsini vaxtında və keyfiyyətlə təmin etsinlər.

**4.** Bu sərəncamın mətni Palatanın internet səhifəsində yerləşdirilsin.

**PALATANIN SƏDRİ** **V. NOVRUZOV**